Non official translation / Qeyri-rəsmi tərcümə

# NİFRƏT CİNAYƏTİ VƏ NİFRƏT NİTQİ



İNSAN HÜQUQLARI ÜZRƏ AVROPA MƏHKƏMƏSİNİN QƏRARLARININ İCRASI DEPARTAMENTİ

DG1

## TEMATIK BÜLLETEN

Tərcümə Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Azərbaycan dilinə qeyri-rəsmi tərcümə ingilis dilindəki orijinal mətnin əsasında icra olunmuşdur.

Bu tərcümə Avropa Şurasının Avropa İnsan Hüquqları Məhkəməsinin Qərarlarının İcrası Departamenti (QİD) ilə razılaşma əsasında, lakin yalnız tərcüməçinin(lərin) məsuliyyət daşıması ilə və QİD-in öhdəlik daşımaması ilə dərc olunur. Mətnin tərcüməsi Avropa İttifaqı və Avropa Şurasının "Yaxşı İdarəcilik ucun Tərəfdaşlıq" birgə proqramının bir hissəsi olan "Azərbaycanda bərabərliyin təşviqi" layihəsi çərçivəsində həyata keçirilmişdir.

Bu tərcümə Avropa İttifaqı və Avropa Şurasının maliyyə dəstəyi ilə hazırlanmışdır. Onun məzmununa görə məsuliyyət yalnız müəllif(lər)in üzərinə düşür. Burada ifadə edilən fikirlər Avropa İttifaqının və ya Avropa Şurasının rəsmi rəyini əks etdirmir. © Avropa Şurası, dekabr 2024-cü il. Bütün hüquqlar qorunur. Şərtlər daxilində Avropa İttifaqına lisenziya verilmişdir.

Non official translation / Qeyri-rəsmi tərcümə

Dekabr 2022-ci il

# NİFRƏT CİNAYƏTİ VƏ NİFRƏT NİTQİ

Bu xülasələrin hazırlanmasına yalnız Avropa Məhkəməsinin Qərarlarının İcrası Departamenti cavabdehdir və onlara görə Nazirlər Komitəsi heç bir şəkildə cavabdehlik daşımır.

**1. *İrqi motivli cinayətlərlə mübarizə* ... 3**

1.1. Təhlükəsizlik qüvvələrinin iştirakı ilə qaraçılara qarşı nifrət cinayətləri ... 3

1.2. Fərdlərin və ya qrupların iştirakı ilə qaraçılara qarşı nifrət cinayətləri ... 7

1.3. Təhlükəsizlik qüvvələrinin iştirakı ilə miqrantlara qarşı nifrət cinayətləri ... 9

1.4. Fərdlərin və ya qrupların iştirakı ilə miqrantlara qarşı nifrət cinayətlərinə qarşı mübarizə ... 11

**2. *LGBTİ qrupuna mənsub şəxslərə münasibətdə nifrət cinayətlərinə və nifrət nitqinə qarşı mübarizə* ... 12**

**3. *Dini motivli nifrət cinayətlərinə və nifrət nitqinə qarşı mübarizə* ... 13**

**4. *İşlərin siyahısı* ... 15**

Nifrət cinayəti bir şəxsə və ya bir qrup şəxsə qarşı qərəzli və ya mənfi münasibətdən qaynaqlanan cinayət əməlidir, nifrət nitqi isə şəxsi xüsusiyyətləri və ya statusu əsasında bir şəxsə və ya bir qrup şəxsə qarşı yönəlmiş müxtəlif ifadə formalarını özündə əks etdirir. Nifrət nitqi cinayət əməli təşkil edən davranış formasını aldıqda (məsələn, sui-istifadə, təqib və ya təhqiredici davranış), həm də nifrət cinayəti adlandırıla bilər.[1]

Məhkəmə qeyd etmişdir ki, bu cür ayrı-seçkilik xarakterli rəftar ağırlıq dərəcəsinə görə insan ləyaqəti üçün təhqiramiz səviyyəyə çatdıqda, prinsipcə Konvensiyanın 3-cü maddəsində nəzərdə tutulmuş ləyaqəti alçaldan rəftara bərabər sayıla bilər. Zorakılıq insidentlərini araşdırarkən dövlət orqanları mümkün ayrı-seçkilik motivlərinin üzə çıxarılması üçün bütün ağlabatan addımları atmağa borcludurlar. Məhkəmə vurğulamışdır ki, hakimiyyət orqanları dözümsüzlükdən və ya ayrı-seçkilikdən qaynaqlanan zorakılığın göstəricisi ola biləcək şübhəli faktları nəzərdən qaçırmadan sübutları toplamaq və təmin etmək üçün mövcud şəraitdə ağlabatan olan hər şeyi etməli, tam əsaslandırılmış, qərəzsiz və obyektiv qərarlar qəbul etməlidirlər. Ayrı-seçkilik niyyətindən qaynaqlanan zorakılıq və qəddarlıq hallarına bu cür çalarları olmayan hallarla bərabər əsasda yanaşmaq xüsusən fundamental hüquqları pozan hərəkətlərin spesifik xarakterinə göz yummağa bərabər olardı.

Hazırkı məlumat bülletenində Avropa Məhkəməsinin qərarlarının icrası kontekstində həyata keçirilən, barəsində dövlətlər tərəfindən məlumat verilən ümumi və fərdi tədbirlərin nümunələri təqdim edilir, hansılar ki, təhlükəsizlik qüvvələri, fərdlər və ya qruplar tərəfindən qaraçılara[2] və miqrantlara qarşı törədilən irqi motivli nifrət cinayətlərinə, LGBTİ qrupuna mənsub şəxsləri hədəfə alan nifrət cinayətlərinə və nifrət nitqinə, habelə dini motivlərdən qaynaqlanan nifrət cinayətlərinə və nifrət nitqinə qarşı mübarizəyə yönəlmişdir.

[1] Bax: ECRI-nin "Nifrət nitqinə qarşı mübarizəyə dair" 15 saylı Ümumi siyasət tövsiyəsi, İzahedici Memorandumun (2015) 21-ci bəndi; həmçinin "Nifrət nitqi ilə mübarizəyə dair" CM/Rec(2022)16 saylı Tövsiyəyə bax.

[2] "Qaraçılar və köçərilər" terminləri Avropa Şurasının bu sahədəki işinin şamil olunduğu geniş çeşidli müxtəlif qrupları əhatə etmək üçün Avropa Şurasında istifadə olunur ki, buraya da bir tərəfdən a) qaraçı, sinti/manuş, kale, kaale, romanixal, boyaş/rudari qrupları; b) balkan misirliləri (misirlilər və aşkalilər); c) şərq qrupları (dom, lom və abdal qrupları); digər tərəfdən isə köçərilər, yenişlər kimi qruplar və "Gens du voyage" ("köç edənlər") inzibati termini ilə adlandırılan əhali qrupları, habelə özlərini qaraçı kimi identikləşdirən şəxslər daxildir.

# 1. İrqi motivli cinayətlərlə mübarizə

## 1.1. Təhlükəsizlik qüvvələrinin iştirakı ilə qaraçılara qarşı nifrət cinayətləri

**BOL / Nachova və başqaları (43577/98 və 42579/98)**

***Böyük Palatanın qərarı: 06/07/2005***

***Yekun qətnamə: CM/Res DH (2017)97***

Bu iş həbs etmə cəhdi zamanı iki qaraçının hərbi polis tərəfindən güllələnərək öldürülməsinə aiddir. Məhkəmə atəş açılmasının irqi motivdən qaynaqlandığı qənaətinə gəlmədi. Bununla belə, o müəyyən etdi ki, hakimiyyət orqanları mümkün irqçi motivlərlə bağlı adekvat araşdırma aparmayıblar.

Konkret olaraq irqçi motivlərinin araşdırılması ilə bağlı tədbirlərə gəlincə, 2011-ci ildə Cinayət Məcəlləsinə adamöldürmənin və sağlamlığa zərər yetirmənin irqçilik və ya ksenofobiya motivləri ilə törədilməsini ağırlaşdırıcı hal kimi nəzərdə tutan dəyişiklik edilib. Bu dəyişiklik hakimiyyət orqanlarına mümkün irqçi motivlərini araşdırmaq imkanı vermək üçün nəzərdə tutulmuşdur. Paralel olaraq, odlu silahdan istifadə ilə bağlı Konvensiyaya uyğun yeni qaydaların tətbiqini nəzərdə tutan qanunvericilik islahatı aparılmış və məhkəmə və prokurorluq orqanları üçün həm odlu silahdan istifadə, həm də irqçi motivlərinin müəyyən edilməsi ilə bağlı mütəmadi təlimlər və maarifləndirmə tədbirləri həyata keçirilmişdir. Bundan başqa, 2011-2016-cı illər ərzində irqçi motivli güc tətbiqi ilə bağlı məhkəməyəqədər istintaq və məhkəmə icraatları üzrə səlahiyyətli orqanlar tərəfindən verilən məlumatlar cinayətlərin irqçi və (və ya) ksenofob motivlərinin müəyyən edilməsi ilə bağlı istintaq təcrübəsinin yaxşılaşdığını göstərir (həmçinin aşağıda bu işə bax: *Angelova və Iliev Bolqarıstana qarşı*).

Məhkəmənin qərarından sonra ərizəçilərin qohumlarının ölümü ilə bağlı yeni araşdırma aparıldı. Araşdırma şahidlərin və iki yeni şahidin əlavə dindirilməsini, hadisə yerinə baş çəkilməsini və hadisələrin canlandırılması (hadisələrin rekonstruksiyası) və atəş trayektoriyasının araşdırılmasını, eləcə də yeni məhkəmə ekspertizasını və ballistik ekspertizanı əhatə edirdi və nəticədə öncə gəlinmiş qənaətlər təsdiq edildi. Araşdırmadan sonra ittiham orqanı 30.11.2007-ci il tarixli qərarı ilə polis əməkdaşının müvafiq dövrdə odlu silahdan istifadə qaydalarını tənzimləyən normalara uyğun hərəkət etdiyi qənaətinə gəldi və cinayət işinə xitam verdi. Bu qərar həm də apellyasiya instansiyasının prokuroru tərəfindən səlahiyyətinə uyğun olaraq yoxlanıldı və 23.01.2008-ci il tarixli qərarla təsdiq edildi. Zərərçəkmişlərin vərəsələri bu qərarlardan apellyasiya şikayəti vermədilər.

---

**YUN / Bekos və Koutropoulos (15250/02)**

***Yekun qərar: 13/03/2006***

***Yekun qətnamə*: CM/ResDH(2021)190**

Bu iş konkret olaraq polis nəzarətində olan iki qaraçıya qarşı qəddar rəftara bərabər tutulan fiziki və şifahi zorakılığa aiddir. Məhkəmə ərizəçilərə qarşı rəftarın irqçi motivli olduğunu müəyyən etmədi. Bununla belə, o hesab etdi ki, hücumların mümkün irqçi motivləri ilə bağlı hakimiyyət orqanlarında mövcud olan inandırıcı məlumatlara baxmayaraq, hakimiyyət orqanları sözügedən hadisələrdə ayrı-seçkiliyin rol oynayıb-oynamadığını araşdırmaq üçün bütün mümkün addımları atmayıblar.

Oxşar pozuntuların təkrarlanmasının qarşısını almaq üçün 2012-ci ildə polis rəisi irqçi davranışla bağlı şikayətlərə prioritet qaydada baxmağı tələb edən sirkulyarla polis orqanlarına müraciət etdi. 2014-cü ildə polis rəisi digər bir sirkulyarla polislərə xatırlatdı ki, zorakı rəftarın arxasında milli mənşə, din, cinsi oriyentasiya, yaş, əlillik ilə və ya digər ayrı-seçkilik xarakterli davranışla bağlı mümkün irqçi motivlərin dayanıb-dayanmadırğını araşdırmaq öhdəliyi daşıyırlar. Yunanıstanın hakimiyyət orqanlarının bu sahədə gördüyü digər tədbirlər aşağıda qeyd edilən *Sakir Yunanıstana qarşı* işdə ümumiləşdirilmişdir. Bundan başqa, 2018-ci ilin dekabr ayında Kassasiya Məhkəməsinin prokuroru bütün prokurorlara sirkulyar vasitəsilə müraciət edərək, onlara Konvensiya və Konstitusiyadan irəli gələn öhdəliklərini xatırladıb və irqçi motivli zorakılıq aktları ilə üzləşdikdə lazımi sərtlik nümayiş etdirməyə çağırıb. Sirkulyar həmçinin polis orqanlarında yayılıb. Üstəlik, irqi cinayətləri araşdırmaq üçün Afina və Saloniki polis idarələri nəzdində irqi zorakılıqla mübarizə üzrə iki ixtisaslaşdırılmış şöbə yaradılmış və Yunanıstan məhkəmələrinə irqi zorakılıq üzrə ixtisaslaşmış prokurorlar təyin edilmişdir. Bundan əlavə, hakimiyyət orqanları bir sıra hallarda Avropa Şurasının təcrübəsinə istinad edərək, prokurorlar, hakimlər və polislər

üçün insan hüquqlarının müdafiəsi və nifrət hüquqpozmaları/cinayətləri ilə bağlı qanunvericiliyin icrası üzrə davamlı təlimlər keçirmişlər (həmçinin bax: *Sakir Yunanıstana qarşı*).

Ərizəçilərə gəldikdə, məsuliyyətə cəlb etmə müddətinin keçməsi ilə bağlı qüvvədə olan qaydalara görə cinayət işinin yenidən açılması mümkün olmamışdır. Həmçinin, inzibati/intizam qaydasında araşdırmanın/məhkəmə icraatının yenidən başladılması hüquqpozmalarla bağlı məsuliyyətə cəlb etmə müddətinin keçməsi səbəbindən mümkün olmamışdır.

---

**MAC / Balogh (47940/99)**

***Yekun qərar: 20/10/2004***

***Yekun qətnamə*: CM/ResDH(2011)294**

Məhkəmə qaraçı ərizəçinin polis tərəfindən dindirilməsi zamanı pis rəftara məruz qalması və hakimiyyət orqanlarının onun aldığı xəsarət (çox güman ki, sifətə vurulan sillə nəticəsində baş vermiş sol qulaq pərdəsinin travmatik perforasiyası) ilə bağlı inandırıcı izahat verməməsi və ya bunların polis nəzarəti xaricində olan başqa bir səbəbdən baş verdiyini göstərən qənaətbəxş dəlil təqdim etməməsi səbəbindən Konvensiyanın pozulduğunu müəyyən etdi. İş materiallarında kifayət qədər sübut olmadığını nəzərə alaraq, ərizəçinin etnik mənşəyinə görə ayrı-seçkiliyə məruz qalması iddiası Məhkəmə tərəfindən araşdırılmadı.

İQAK-ın 1999-cu ildə Macarıstana səfərindən sonra Milli Baş Polis İdarəsi gələcəkdə oxşar halların təkrarlanmaması üçün polis komandirlərinə, digər əməllərlə yanaşı, işgəncələrin, dindirmə zamanı zor tətbiqinin və qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın qadağan edilməsi ilə bağlı daxili təlimatlar verdi. Bundan əlavə, 2002-ci ildən etibarən Polis Fəaliyyətinin İdarə Edilməsi üzrə Tədris və Tədqiqat İnstitutu tərəfindən polis əməkdaşları üçün "Qaraçı əhali və polis fəaliyyəti" mövzusunda təlimlər keçirilir ki, bunlar da mənfi stereotiplərlə mübarizə aparmağa və qərəzlilikdən və mənfi ayrı-seçkilikdən kənar olan qanuni hərəkətləri təşviq etməyə yönəlib. Həmçinin Polis Fəaliyyəti və Cinayətkarlığın Qarşısının Alınması İnstitutu tərəfindən insan və azlıq hüquqlarına dair xüsusi təlimlər təşkil olunur.

---

**MAC / Balázs işlər qrupu *(*15529/12*)***

***Yekun qərar: 14/03/2016***

**İcra vəziyyəti: gözləmədə**

***DH-DD(2019)1121 və DH-DD(2022)822***

Bu işlərdə Məhkəmə müəyyən etdi ki, vəzifə səlahiyyətlərinin icrası zamanı və ya iş başında olmadıqları zaman hüquq-mühafizə orqanları əməkdaşlarının.[3] qaraçılarla pis rəftar etməsi və ya qaraçılara qarşı irqçi motivli sui-istifadə hallarına yol verməsi, xüsusən də sağçı qruplar tərəfindən təşkil edilən açıq irqçi anti-qaraçı nümayişləri kontekstində belə halların baş verməsi ilə bağlı hakimiyyət orqanları tərəfindən səmərəli araşdırma aparılmayıb

Oxşar pozuntuların təkrarlanmasının qarşısını almaq üçün yeni Cinayət Məcəlləsinin 216-cı maddəsinə əsasən şəxsin faktiki və ya ehtimal edilən milli, etnik, irqi və ya dini qrupa mənsubiyyətinə görə ona qarşı təkcə "güc tətbiqi" deyil, həm də "hər hansı təxribat xarakterli davranışı" cinayət hesab edilir. Bundan başqa, zorakılığa səbəb ola biləcək hədələyici dildən, habelə nifrət saçan dildən istifadənin cinayət əməli hesab edilməsi üçün "qrupa qarşı təhrikçilik" cinayətinin (yeni Cinayət Məcəlləsinin 332-ci maddəsi) əhatə dairəsi genişləndirilib.

Bundan başqa, 2019-cu ildə Milli Baş Polis İdarəsi (ORFK) "Polisin nifrət cinayətlərinə qarşı mübarizə ilə bağlı vəzifələrinə dair təlimat" (30/2019 saylı Təlimat) dərc etmiş, həmin Təlimata qərəzliliyə dəlalət edən göstəricilər/sübutlar və bütünlüklə və ya qismən qərəzli motivlərdən qaynaqlanan cinayətlərin müəyyən edilməsi üçün obyektiv faktların və halların siyahısı daxil edilmişdir. 30/2019 saylı Təlimat əsasında hər bir polis bölməsində "mentorlar" (yəni nifrət cinayətləri üzrə məsləhətçilər) təyin edilmiş, həmçinin dairə, regional və milli səviyyələrdə yeni vəzifə kimi "sahə üzrə mütəxəssis" vəzifəsi (yəni nifrət cinayətləri üzrə mütəxəssis əməkdaşlar) yaradılmışdır ki, onların da üzərinə nifrət cinayətlərinin/insidentlərinin müəyyən edilməsi, sübutların toplanması,

---

[3] Hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən yol verilən qeyri-insani və ləyaqəti alçaldan rəftar məsələsinə *Gubacsi Macarıstana qarşı* (ərizə № 44686/07) işlər qrupu çərçivəsində Nazirlər Komitəsi tərəfindən baxılır.

monitorinq və məlumat vermə ilə bağlı konkret vəzifə və öhdəliklər qoyulmuşdur. 2019-cu ildə həmçinin Baş prokurorluq tərəfindən "Nifrət cinayətlərinin sübutlarla bağlı aspektlərinə dair" digər bir Təlimat qəbul edildi, orada nifrət cinayətinin anlayışı verilmiş, qanunla qorunması tələb olunan qrup və icmaların xarakteristikaları müəyyən edilmiş, məhkəmə təcrübəsindən irəli gələn nəzəri məsələlərə və onlarla bağlı formalaşmış rəylərə toxunulmuş, habelə qərəzli motivlərin mövcudluğunu müəyyən etməyə kömək edən qərəzlilik göstəriciləri qeyd edilmişdir.

Bundan əlavə, hakimiyyət orqanları 2010-cu ildən etibarən polis və prokurorluq orqanları üçün nifrət cinayətləri/insidentləri ilə bağlı müxtəlif və mütəmadi təlim fəaliyyətləri və kursları təşkil etdikləri barədə məlumat veriblər.

*Balázs işi* üzrə fərdi tədbirlərə gəlincə, ərizəçiyə qarşı sui-istifadəyə yol vermiş polis əməkdaşı ictimai asayişi pozmaqda təqsirli bilinib və bir il sınaq müddəti təyin edilməklə məhkum edilib. *Király və Dömötör işində* polis araşdırmaları zamanı bir hüquqpozan müəyyən edilmiş və şübhəli şəxs qismində dindirilmişdi. Cinayət prosesinin davam etdirilməsi üçün başqa şəxslərin şəxsiyyətinin müəyyən edilməsi zəruri olsa da, onların şəxsiyyətini müəyyən etmək mümkün olmamışdı. Beləliklə, 2013-cü ilin sentyabrında istintaq dayandırılmış, sonra isə məsuliyyətə cəlb etmə müddəti keçdiyinə görə 2021-ci ilin sentyabrında işə xitam verilmişdir. *M.F. işində* altı polis əməkdaşına qarşı intizam icraatına başlanılmışdır. *R.B. işində* isə hadisələr zamanı adekvat qanunvericilik bazasının olmaması nəzərə alınaraq, ərizəçiyə qarşı edilmiş hərəkətlərin cəzalandırılması və həmçinin əlavə fərdi tədbirlərin görülməsi mümkün olmamışdır.

---

**SVK / Lakatošová və Lakatoš (655/16)**

***Yekun qərar: 11/03/2019***

**Yekun qətnamə: CM/ResDH(2021)218**

Bu iş qaraçı ailəsinin evində iş başında olmayan polis əməkdaşı tərəfindən törədilən, iki ağır yaralanma və üç ölümlə nəticələnən atışmada irqçilik motivlərinin olub-olmamasının hakimiyyət orqanları tərəfindən araşdırılmaması ilə bağlıdır. Polislər tərəfindən sorğu-sual edilərkən həmin polis əməkdaşı qaraçılarla “haqq-hesab çəkmək” üçün “radikal həll yolu” barədə düşündüyünü söyləmişdi. Həmçinin yerli məhkəmələr istintaqın və cinayət təqibinin məhdud çərçivədə aparılmasına münasibət bildirməmişdilər.

İşin faktları araşdırıldıqdan sonra 2017-ci ildə Cinayət Məcəlləsinə dəyişiklik edilmiş, bir şəxsə və ya bir qrup şəxsə qarşı dərisinin rənginə, milli və ya etnik mənsubiyyətinə, cinsinə, cinsi oriyentasiyasına, siyasi və ya dini əqidəsinə görə “xüsusi motivlərlə” törədilmiş nifrət cinayətləri Məcəlləyə daxil edilmişdir. Həmçinin hər hansı cinayət əməlində irqçilik motivinin olması daha ağır sanksiyalara səbəb olan ağırlaşdırıcı hal kimi götürülür. "Cinayətlərin qurbanları haqqında" 2018-ci il tarixli Qanunda xüsusilə həssas qrupa aid olan, xüsusi müdafiəyə ehtiyacı olan qurbanlar, xüsusən də cinsi oriyentasiya, milli, irqi və ya etnik mənsubiyyət və s. zəminində törədilmiş cinayətlərin qurbanları müəyyən edilmişdir. Bu sahədə hakimiyyət orqanları tərəfindən həyata keçirilən digər ümumi tədbirlər hazırda *R.R. və R.D. Slovakiyaya qarşı iş* çərçivəsində (ərizə № 20649/18) qiymətləndirilir.

Fərdi tədbirlərə gəlincə, Baş prokurorluğun qiymətləndirməsinə görə, cinayətin irqçilik motivi təsdiq olunursa, cinayət törətmiş şəxsin davranışının hüquqi tövsifi əsaslı şəkildə dəyişməyəcək və təqsirkarın anlaqlılıq səviyyəsi aşağı olduğuna görə eyni cəza norması çərçivəsində cəzalandırılacaq. Cinayət əməlinin ərizəçinin şəxsi və ailə həyatı üçün doğurduğu bütün nəticələri qiymətləndirə biləcək mülki məhkəmə icraatına ərizəçilərin öz iddialarını geri götürmələri səbəbindən xitam verilmişdir.

---

**SVK / Mizigarova (74832/01)**

***Yekun qərar: 14/03/2011***

**Yekun qətnamə: CM/ResDH(2016)17**

Bu iş hakimiyyət orqanlarının polis nəzarətində dindirildikdən sonra xəstəxanada ölmüş iyirmi yaşlı qaraçının həyatını qorumaması ilə bağlıdır. Məhkəmə həmçinin ərizəçinin ərinin iddia olunan pis rəftara məruz qalması və ölümü ilə bağlı aparılmış araşdırmadakı ciddi çatışmazlıqları qeyd etmişdir.

---

Oxşar pozuntuların təkrarlanmaması üçün 2013-cü ilin avqust ayından etibarən ekstremizmlə bağlı hər hansı araşdırma artıq sıravi polis əməkdaşı tərəfindən deyil, polis müstəntiqi tərəfindən aparılmalıdır. Həmçinin ekstremizmlə mübarizə üçün hər bir məhkəmə dairəsində bir prokuror, polis rəisinin aparatında və hər bir rayon polis idarəsində xüsusi polis şöbəsi təyin olunmuş, habelə regional polis idarələri səviyyəsində fəaliyyət üçün azlıqların/qaraçıların problemləri üzrə ixtisaslaşmış 231 polis əməkdaşı təyin olunmuşdur. Polis əməkdaşları üçün ekstremist cinayət əməllərinin yeni formalarına qarşı mübarizə və qaraçılara qarşı polis tərəfindən həddindən artıq güc tətbiqindən istifadənin qarşısının alınması üzrə vaxtaşırı təlimlər keçirilir. Qaraçı əsilli polislərin sayının artırılması nəzərdə tutulmuşdur. Üstəlik, Daxili İşlər Nazirliyinin nəzdində İrqçiliyin, ksenofobiyanın, antisemitizmin və digər dözümsüzlük formalarının qarşısının alınması və aradan qaldırılması üzrə komitə yaradılıb və məsləhətçi orqan kimi fəaliyyət göstərir. Bundan başqa, Daxili İşlər Nazirliyinin çətiri altında 2011-2014-cü illər üçün ekstremizmə qarşı mübarizə strategiyası çərçivəsində hakimlər, prokurorlar və polis əməkdaşlarının məlumatlandırılması üçün ekstremist simvollarının məlumat bazası yaradılıb. Bu iş üzrə qərar xüsusilə polis, prokurorluq və milli məhkəmə orqanları arasında geniş şəkildə yayılmış və Hökumətin Nümayəndəsi tərəfindən 2011-ci ilin noyabrında hakimlər və prokurorlarla keçirilən seminarlar və görüşlər zamanı təqdim edilmişdir.

Ərizəçinin ərinin ölümünün araşdırılmasına gəlincə, müvafiq polis əməkdaşının intihar etməsi istintaqın yenidən başlanmasını mümkünsüz etmişdir.

---

**RUM / Boacă və başqaları (40355/11)**

**12/01/2016 tarixli qərar, qüvvəyə minmə tarixi (q.m.): 12/04/2016**

**RUM / Cobzaru (48254/99)**

**26/07/2007 tarixli qərar, q.m.: 26/10/2007**

**RUM / Stoica (42722/02)** [4]

***04/03/2008 tarixli qərar, q.m.: 04/06/2008***

***Yekun qətnamə: CM/ResDH(2016)150***

*Boacă və başqalarının işi* və *Kobzaru işi* polis nəzarətində olan qaraçı ərizəçilərə qarşı pis rəftara aiddir. Ayrı-seçkiliyə dair şikayət ilə bağlı hər hansı aşkar araşdırmanın aparılmamasını nəzərə alaraq, Məhkəmə müəyyən etdi ki, hakimiyyət orqanları mümkün irqçilik motivlərini araşdırmaq öhdəliyinə əməl etməyiblər. *Stoica işində* Məhkəmə müəyyən etdi ki, 14 yaşlı qaraçıya qarşı polis əməkdaşı tərəfindən törədilmiş pis rəftar, həmçinin onu döymüş polis əməkdaşını cinayət məsuliyyətinə cəlb etməmək barədə qərar irqçi motivlidir.

Oxşar pozuntuların təkrarlanmasının qarşısını almaq üçün Cinayət Məcəlləsinə dəyişiklik etmiş 278/2006 saylı Qanuna əsasən etnik/irqi motiv cəzanı ağırlaşdıran amil kimi götürülür və cinayət təqibi orqanları konkret işdə onun təsirini öz təşəbbüsləri ilə yoxlamağa borcludurlar. Bundan əlavə, 2022-ci ildə dəyişiklik edilmiş həmin qanuna əsasən, zorakılığa təhrikçilik də cinayət sayılır və indi həm də nitq qanunla qorunan kateqoriyaya aid olan şəxsə qarşı yönəldildikdə, bu nifrətə, ayrı-seçkiliyə və zorakılığa təhrikçilik hesab olunur. Bundan əlavə, Daxili İşlər Nazirliyi nəzdində İctimai Asayişin Tədqiqi İnstitutu, Polis Akademiyası və digər regional təlim müəssisələri və xidmətləri 2010-2015-ci illər arasında polis və jandarmeriya əməkdaşları üçün ixtisasartırma proqramları həyata keçirmişlər və bu zaman əsas diqqət insan hüquqlarının müdafiəsi, polislə həssas qruplara aid insanlar, o cümlədən qaraçılar arasında münasibətlər mövzusuna, o cümlədən işgəncə və pis rəftarın qarşısının alınması, etnik/irqi motivdən qaynaqlanan ayrı-seçkilik və pis rəftar halları ilə mübarizə və onların qarşısının alınması komponentinə yönəldilmişdir. Bu sahədə əlavə tədbirlər *Lingurar işi* (ərizə № 48474/14) kontekstində hələ də Nazirlər Komitəsinin nəzarəti altındadır.

Ərizəçilərə gəlincə, təhqiramiz davranışa görə cinayət məsuliyyəti üçün və bu cür rəftarın mümkün irqi motivlərinin araşdırılması üçün müəyyən edilmiş müddət keçdiyinə görə mübahisələndirilən icraatın yenidən başlanması mümkün olmamışdır.

---

[4] Bu işlər *Barbu Anghelescu (№ 1)* (ərizə № 46430/99) işlər qrupunun bir hissəsidir. *Barbu Anghelescu* işlər qrupunda görülən əlavə tədbirlər haqqında məlumat üçün "Səmərəli araşdırmalar" mövzusunda tematik bülletenə bax.

## 1.2. Fərdlərin və ya qrupların iştirakı ilə qaraçılara qarşı nifrət cinayətləri

*Angelova və Iliev işi* bir qrup yeniyetmə tərəfindən bir qaraçının irqçilik zəmində öldürülməsinə və hakimiyyət orqanları tərəfindən hücum edənlərin irqçi motivli cinayətini araşdırmamasına və onlara qarşı ittiham irəli sürməməsinə aiddir. *Abdu işi* hakimiyyət orqanlarının bolqar gənclər tərəfindən sudanlı ərizəçinin məruz qaldığı hücumun mümkün irqçi motivini araşdırmaması ilə bağlıdır. *Yotova işində* Məhkəmə müəyyən etdi ki, hakimiyyət orqanları həm qaraçı ərizəçiyə qarşı bolqar gənclər tərəfindən törədildiyi iddia edilən adam öldürmə cəhdini araşdırmayıb, həm də cinayətin irqçi motivli olub-olmadığını müəyyən etməyiblər.

**BOL / Angelova və Iliev işlər qrupu (55523/00)**
***26/07/2007 tarixli qərar, q.m.: 26/10/2007***

**BOL / Abdu (26827/08)**
***11/03/2014 tarixli qərar, q.m.: 11/06/2014***

Oxşar pozuntuların qarşısını almaq üçün 2011-ci ildə dəyişiklik edilmiş Cinayət Məcəlləsinə irqçi və ya ksenofob motivlərlə adam öldürmə və sağlamlığa zərər yetirməni ağırlaşdırıcı hal kimi müəyyən edən maddələr daxil edilib. Daha aktual tədbirlər üçün yuxarıda qeyd edilən *Nachova və başqaları Bolqarıstana qarşı* işə bax.

**BOL / Yotova (43606/04)**
***23/10/2012 tarixli qərar, q.m.: 23/01/2013***

*Angelova və Iliev işindəki* ərizəçilərə gəldikdə, ərizəçilərin qohumunun ölümündə təqsirli bilinərək məhkəmə qarşısına çıxarılan şəxslərdən birinin cəzası Ali Məhkəmənin təqdimatı əsasında apellyasiya məhkəməsi tərəfindən üç il şərti cəzaya qədər artırılıb. Həmçinin apelyasiya instansiyası məhkəməsi tərəfindən ərizəçilər üçün mənəvi ziyana görə kompensasiya artırılmışdır. İkinci instansiya məhkəməsinin qərarından tərəflər şikayət verməyiblər. *Abdu işindəki* ərizəçiyə gəlincə, təqsirkarları cinayətə görə məsuliyyətə cəlb etmə müddətinin keçməsi və istintaqda bundan əvvəl baş vermiş çatışmazlıqlar nəzərə alınmaqla, bu istiqamətdə digər tədbirlərin görülməsi mümkün olmamışdır. *Yotova işində* 2014-cü ildə cinayət məsuliyyətinə cəlb etmə müddəti keçdiyi üçün hücum edənlərə qarşı cinayət işinə xitam verilib.

**Yekun qətnamə: CM/ResDH(2017)383**

---

*Šečić işi* qaraçı ərizəçilərin hücum nəticəsində aldığı xəsarətlərlə bağlı araşdırmanın səmərəsiz olmasına aiddir, halbuki hakimiyyət orqanları hücum edənlərin ekstremist və irqçi ideologiyanı rəhbər tutan skinhedlər qrupuna mənsub olduqlarını bilirdilər. *Škorjanec işində* ərizəçi qadın və onun qaraçı əsilli cinsi tərəf-müqabili qaraçılara qarşı təhqiramiz ifadələr səsləndirən iki şəxs tərəfindən hücuma məruz qalmışdılar. Məhkəmə bu faktı tənqid etdi ki, cinayət təqibi orqanları araşdırmanı və qiymətləndirməni apararkən diqqətlərini yalnız ərizəçinin cinsi tərəf-müqabilinə qarşı törədilmiş zorakı hücumda nifrət cinayəti elementinin olub-olmaması üzərində cəmləşdirmiş, onun hücumçular tərəfindən qaraçı əsilli şəxs kimi qəbul edilib-edilmədiyini isə müəyyənləşdirməmişdilər.

**XOR/ Šečić işlər qrupu (40116/02)**
***31/05/2007 tarixli qərar, q.m.: 31/08/2007***

**XOR / Škorjanec (25536/14)**
***28/03/2017 tarixli qərar, q.m.: 28/06/2017***

Bu işlərdəki faktlar baş verdikdən sonra konkret olaraq irqi və ya etnik mənşəyə görə birbaşa və dolayı ayrı-seçkiliyi birmənalı şəkildə qadağan etmək üçün "Ayrı-seçkiliyə qarşı mübarizə haqqında" 2008-ci il tarixli Qanun qəbul edildi. "Ayrı-seçkiliyə qarşı mübarizə haqqında" Qanuna uyğun olaraq, ombudsman yerli hakimiyyət orqanlarının qanunlara riayət etməsinə nəzarət etmək üçün ayrı-seçkiliyin aradan qaldırılması məsələsinə cavabdeh olan mərkəzi orqana çevrildi. Bundan əlavə, 2013-cü ildən qüvvədə olan Cinayət Məcəlləsində cinayətin törədilməsində nifrət motivi digər cinayətlər üzrə cəzanı ağırlaşdıran hal kimi müəyyən edilmişdir. Tənzimləyici tədbirlərə gəldikdə, 2021-ci ilin aprelində nifrət cinayətləri ilə bağlı prosedurları sadələşdirən yeni protokol qüvvəyə minib. O, polisin nifrət cinayəti ilə bağlı istintaq apararkən araşdırmalı olduğu mümkün cinayət göstəricilərinin dairəsini genişləndirib, məsələn, buraya daxildir: qurbanın müəyyən qrupa mənsubluğu, hüquqpozanın ekstremizmi təbliğ edən qrupla əlaqəsi, qurbanın və ya şahidin hücumun arxasında duran mümkün nifrət motivi barədə düşüncəsi, ictimaiyyət üçün açıq olan, müəyyən qrupa qarşı nifrəti təbliğ edən materialların istifadəsi, nifrət nitqinin onlayn təbliği və s.

***Yekun qətnamə: CM/ResDH(2022)81***

---

Həmçinin 2013-cü ildə hökumət hüquq-mühafizə orqanlarının əməkdaşları və prokurorlar üçün nəzərdə tutulmuş nifrət cinayətlərilə, xüsusən də qaraçılar əleyhinə bu cür əməllərlə bağlı maarifləmdirməyə və onların düzgün şəkildə müəyyən edilməsinə yönəlmiş "*2013-2020-ci illər üçün qaraçıların inteqrasiyası üzrə Milli Strategiya*" qəbul etmişdir. 2017-ci ildə Milli Azlıqların İnsan Hüquqları üzrə Hökumət İdarəsi "*Qaraçıların inteqrasiyası üzrə Milli Strategiya"nın effektiv şəkildə həyata keçirilməsi üçün məlumatların toplanması və monitorinqi*" layihəsinə başlamışdır. Strategiyanın 2018-2019-cu illər üzrə icrası ilə bağlı yenidən işlənmiş Tədbirlər Planı qəbul edilimişdir. Bundan başqa, hökumətin "*2017-2019-cu illər üçün ayrı-seçkiliklə mübarizə üzrə Milli Planın həyata keçirilməsi üçün Fəaliyyət Planı*"na ayrı-seçkiliyə yol verilməməsi ilə bağlı məqsədyönlü təlim fəaliyyətləri daxil edilmiş, onlar xüsusilə prokurorlar, polislər və dövlət məmurları üçün nəzərdə tutulmuşdur.

*Šečić işindəki* ərizəçiyə gəlincə, cinayətə görə məsuliyyətinə cəlb etmə müddəti keçdiyinə görə yeni araşdırma aparmaq mümkün olmamışdır. *Škorjanec işində* isə, 2017-ci ildə Zaqreb bələdiyyəsi dövlət prokurorluğu tərəfindən səlahiyyətinə uyğun olaraq aparılmış araşdırmadan sonra ərizəçinin cinayət barədə şikayəti və hücumun arxasında duran irqçilik motivi (iddiaya görə, ərizəçiyə qaraçı əsilli tərəf-müqabili ilə əlaqəsinə görə hücum edilmişdi) rədd edilmişdir.

---

**MON / Alković (66895/10)**

***05/12/2017 tarixli qərar, q.m.: 05/03/2018***

***Yekun qətnamə: CM/ResDH(2018)384***

Bu iş müsəlman qaraçı olan ərizəçiyə qarşı qonşuları tərəfindən fiziki və şifahi hücumlarla bağlı araşdırmanın səmərəsizliyinə aiddir.

Avropa Məhkəməsinin qərarına cavab olaraq, prokurorluq şəxsin irqi, dərisinin rəngi, dini, mənşəyi və ya milli mənsubiyyətinə görə baş verən zorakılıq və ya nifrətin təşviqi ilə bağlı cinayət şikayətlərinin araşdırılması üzrə yeni təcrübələrdən, habelə Podqoritsa Ali Məhkəməsinin müvafiq presedent hüququndan nümunələr təqdim etmişdir. Bundan başqa, məhkəmə və prokurorluq orqanları üçün bir sıra məqsədyönlü maarifləndirmə tədbirləri, o cümlədən 2017-ci ildə Konstitusiya Məhkəməsi tərəfindən təşkil edilmiş ayrı-seçkiliyin qadağan olunması üzrə regional konfrans keçirilmişdir. Məhkəmə qərarından Məhkəmələrin və Prokurorluğun Təlim Mərkəzinin təlim fəaliyyətlərində də istifadə olunmuşdur.

Ərizəçiyə gəlincə, işə yenidən baxıldıqdan sonra prokuror müəyyən etdi ki, Avropa Məhkəməsinin qərarından öncə sözügedən hadisələrlə bağlı cinayətə görə məsuliyyətə cəlb etmə müddəti keçdiyinə görə yeni araşdırma aparılması mümkün deyil. Bu arada ərizəçi Belçikaya köçmüşdür.

---

**SVK / Koky və başqaları (13624/03)**

***Yekun qərar: 12/09/2012***

***Yekun qətnamə: CM/ResDH(2017)86***

İş qaraçı ərizəçilərin müəyyən şəxslər tərəfindən məruz qaldıqları fiziki hücum və xəsarətlərlə bağlı səmərəli araşdırmanın aparılmaması səbəbindən baş vermiş 3-cü maddənin prosessual pozuntusuna aiddir.

Məhkəmənin qərarına cavab olaraq, 2014-cü ilin fevralında ekstremizm cinayət əməli kimi "Cinayətlər haqqında" 1990-cı il tarixli Qanuna daxil edildi. 2014-cü ildə Daxili İşlər Nazirliyi tərəfindən ekstremizm və fanatların zorakılığı ilə mübarizə üzrə yeni qaydalar qəbul edildi və ekstremizm və irqçi motivli cinayətlər üzrə ixtisaslaşmış müstəntiq vəzifələri yaradıldı. 2017-ci il yanvarın 1-dən Cinayət Prosessual Məcəlləsinə və Cinayət Məcəlləsinə irqçi motivli cinayətlərin istintaqının səmərəliliyini artıran dəyişikliklər qüvvəyə minmiş, belə cinayətlər üzrə yurisdiksiya rayon məhkəmələrindən alınaraq İxtisaslaşdırılmış Cinayət Məhkəməsinə verilmişdir. Həmçinin prokuror və hakimlər üçün maarifləndirmə tədbirləri və təlimlər təşkil olunmuşdur.

Ərizəçilərə gəlincə, hücumla bağlı 2003-cü ildə dayandırılmış araşdırma 2012-ci ildə yenidən aparılsa da, cinayətkarların müəyyənləşdirilməsinə gətirib çıxarmadı. Müəyyən edilmiş faktlar

ittiham irəli sürülməsi üçün heç bir tutarlı əsas vermədiyindən, Cinayət Prosessual Məcəlləsinin 228-ci maddəsi əsasında istintaq sonradan dayandırıldı. Bu qərardan şikayət verilməmişdir.

Bu işlərdə pozuntular Harqita, Curcu və Mureş dairələrində müəyyən şəxslər tərəfindən qaraçı ərizəçilərin evlərinin irqçilik motivi ilə dağıdılmasından irəli gəlir. Pozuntular, digər səbəblərlə yanaşı, qeyri-adekvat yaşayış şəraiti ilə, habelə uzun müddət ərzində buna son qoymayan hakimiyyət orqanlarının ümumi ayrı-seçkilik münasibəti ilə əlaqədardır.

*Gergely işində*, *Kalanios və başqalarının işində*, habelə *Tănase və başqalarının işində* Rumıniya hakimiyyəti sözügedən hadisələrin Konvensiyanın 3, 6, 8, 13 və 14-cü maddələrinin pozulması ilə nəticələndiyini etiraf edən birtərəfli bəyannamələr təqdim etdi. Bu kontekstdə Rumıniya hakimiyyəti ərizəçilərə müəyyən məbləğlərin ödənilməsi ilə yanaşı, bir sıra ümumi tədbirlər görməyi öhdəsinə götürdü.

Hakimiyyət orqanlarının analoji pozuntuların təkrarlanmamasını təmin etməyə yönələn fəaliyyətləri üçün əsas təşkil edən tədbirlər "Ayrı-seçkiliyin bütün formalarının qarşısının alınması və cəzalandırılması haqqında" 137/2000 saylı Hökumət Qərarının[5] qəbulundan və 2002-ci ildə Ayrı-seçkiliklə Mübarizə üzrə Milli Şuranın yaradılmasından ibarət olmuşdur, sonuncunun vəzifələrinə qaraçılara münasibətdə ayrı-seçkilik də daxil olmaqla ayrı-seçkiliyə qarşı mübarizə tədbirlərinin həyata keçirilməsi üçün milli strategiyaları[6] təşviq etmək daxildir.

Həmçinin qərarlara cavab olaraq, aşağıdakıları əhatə edən məqsədyönlü tədbirlər planları qəbul edilmiş və həyata keçirilmişdir: zəruri hallarda qaraçılar üçün infrastrukturun yaxşılaşdırılması və layiqli yaşayış şəraitinin təmin edilməsi, məsələn, bu məqsədlə evlərin yenidən inşası və (və ya) təqdim edilməsi, sosial mənzillərin verilməsi və ya lazım gəldikdə tibb mərkəzlərinin yaradılması, məktəblərin, uşaq bağçalarının, mədəniyyət evlərinin tikintisi, habelə müvafiq dairələrdə zəruri avadanlıqların alınması. Həmçinin yetkin yaşlı qaraçıların təhsili və təlimi sahəsində, habelə qarşılıqlı yardım və icma inkişafı layihələrinin təşviqi vasitəsilə yerli icmanın iqtisadi, sosial, təhsil, mədəni və siyasi həyatında onların iştirakının stimullaşdırılması sahəsində tədbirlər həyata keçirilmişdir. Ayrı-seçkiliyin, stereotiplərin və millətlərarası münaqişələrin qarşısını almaq üçün məktəblərdə xüsusi təhsil proqramları, eləcə də geniş ictimaiyyət üçün məlumatlandırma proqramları və qaraçı icmasından olan insanların cəlb olunduğu hüquqi təlimlər həyata keçirilmişdir.

**RUM/Moldovan və başqaları (№ 2) işlər qrupu (41138/98 və 64320/01)**

***Yekun qərar: 30/11/2005***

**RUM / Gergely (57885/00)**

***Yekun qərar: 26/07/2007***

**RUM / Kalanyos and Others (57884/00)**

***Yekun qərar: 26/07/2007***

**RUM / Tănase və başqaları (62954/00)**

***Yekun qərar: 26/08/2009***

***Yekun qətnamələr: CM/ResDH(2016)39, CM/ResDH(2015)214 və CM/ResDH(2015)238***

## 1.3. Təhlükəsizlik qüvvələrinin iştirakı ilə miqrantlara qarşı nifrət cinayətləri

İş 1996-cı ildə tutulduğu və həbsdə saxlandığı zaman ərizəçinin polis tərəfindən qəddar rəftara məruz qalması ilə bağlı araşdırmanın səmərəsizliyinə aiddir. Ona qarşı hücumun zorakı xarakterini nəzərə alaraq, Məhkəmə konkret olaraq müəyyən etdi ki, hakimiyyət orqanları hadisələrin arxasında ərizəçinin etnik mənşəyinə əsaslanan mümkün irqçilik motivinin dayandığını, nifrətin və ya qərəzliliyin mövcudluğunu yoxlamayıblar.

**BEL / Turan Cakir (44256/06)**

***Yekun qərar: 10/06/2009***

**Yekun qətnamə: CM/ResDH(2015)159**

[5] Qərarın mətninə irqi və etnik mənşəyindən asılı olmayaraq insanlar arasında bərabər rəftar prinsipinin tətbiqini nəzərdə tutan Aİ Şurasının 29 iyun 2000-ci il tarixli 2000/43/EC saylı Direktivinin müddəaları daxil edilmişdir.

[6] Ayrı-seçkiliyə qarşı mübarizə tədbirlərinin həyata keçirilməsinə dair 2007-2013-cü illər üzrə Milli Strategiya.

Məhkəmənin qərarına cavab olaraq, hakimiyyət orqanları bildirdilər ki, 25 fevral 2003-cü il tarixli Qanunla Cinayət Məcəlləsinin 405-ci maddəsində dəyişiklik edilərək "ayrı-seçkiliyin əsasları"[7] müxtəlif cinayətlər, o cümlədən adam öldürmə və sağlamlığa zərər vurma əməlləri üçün ağırlaşdırıcı hal kimi Məcəlləyə daxil edilib. Bundan əlavə, 14 yanvar 2013-cü il tarixli Qanunla 405-ci maddəyə dəyişiklik edilərək ayrı-seçkilik motivi ilə adam ödürməyə və qəsdən törədilən hücuma görə maksimum cəzalar artırıldı. 2007-2012-ci illər arasında irqçi motivli hücumların baş verdiyi və xəsarətlərin yetirildiyi 108 hadisə qeydə alınıb. Bu növ cinayətə görə məhkəmə hökmləri ilə bağlı dəqiq rəqəmlər olmasa da, hakimiyyət orqanları əməllərin irqçi motivlərini ağırlaşdırıcı hal hesab etmiş bir sıra milli məhkəmələrin qərarlarına[8] istinad ediblər. Bu məlumatlar təsdiq edir ki, indi məhkəmə sistemi müxtəlif hüquqpozmaların, o cümlədən polis tərəfindən törədilənlərin mümkün "ayrı-seçkilik, o cümlədən irqçilik" motivlərini araşdırır və qərar qəbul edir. Bundan əlavə, ilkin təlim zamanı polis əməkdaşlarına ayrı-seçkilik və irqçilik əleyhinə qanunların pozulması hallarına müdaxilə etmək və bu barədə məlumat vermək öyrədilir. Hüquqi baza ilə və bu qanunların tətbiqi ilə bağlı davamlı təlimlər keçirilir. Holokostun inkarı, ayrı-seçkilik və nifrət cinayətləri, xüsusilə də qurbanın milliyyətinə, iddia edilən irqinə, dərisinin rənginə, mənşəyinə və yaxud milli və ya etnik mənşəyinə əsaslanan cinayətlər sahəsində tədqiqat və cinayət təqibi siyasəti məsələlərindən bəhs edən Ədliyyə və Daxili İşlər Nazirlərinin və Prokurorlar Kollegiyasının C O L 13/2013 saylı sirkulyarı qüvvəyə mindikdən sonra bu sahələrdə polis əməkdaşlarının və magistratların təlimi gücləndirilib. Bu sirkulyar həmçinin bu sahələrlə bağlı müraciət üçün "xüsusi" polis əməkdaşlarının və magistratların təyin edilməsini nəzərdə tutur. Polis əməkdaşları həmçinin müxtəlifliyin idarə edilməsi və mədəniyyətlərarası dialoq məsələləri üzrə təlim alırlar.

Ərizəçiyə gəlincə, Məhkəmənin təyin etdiyi ədalətli kompensasiyanın ödənilməsi istisna olmaqla, cinayət əməllərinə görə məsuliyyətə cəlb etmə müddəti keçdiyinə görə hüquq pozucularına qarşı cinayət və (və ya) intizam icraatının açılmasının/yenidən açılmasının qeyri-mümkün olduğu nəzərə alınaraq, fərdi tədbirlərin icrası mümkün olmamışdır.

---

**İSP / B.S. (47159/08)**

***24/07/2012 tarixli qərar, q.m.: 24/10/2012***

**İcra vəziyyəti: gözləmədə**

***Fəaliyyət hesabatı: DH-DD(2022)661***

İş miqrant ərizəçiyə qarşı polis tərəfindən törədildiyi iddia edilən pis rəftarda mümkün irqçilik motivlərinin olması ilə bağlı araşdırmanın səmərəsizliyinə aiddir.

Oxşar pozuntuların qarşısını almaq üçün 22 iyun 2010-cu il tarixli Orqanik Qanunla Cinayət Məcəlləsinə 22.4-cü maddə daxil edilərək ayrı-seçkilik cinayət məsuliyyətini ağırlaşdıran hal kimi müəyyən edilib və bununla da istintaqı həyata keçirən hakimlər iddia edilən ayrı-seçkilik motivli cinayət əməlində bu ağırlaşdırıcı halın olub-olmadığını yoxlamağa borcludurlar. İrqçilik, ksenofobiya, homofobiya və transfobiya ilə mübarizə mövzusunda ispan dilinə tərcümə olunmuş Avropa Şurasının HELP kursu haqqında məlumatlandırılan hakimlər və magistratlar üçün xüsusilə nifrət cinayətlərinin araşdırılması məsələsini əhatə edən mütəmadi təlim seminarları keçirilir.

Hakimiyyət orqanları həmçinin məlumat verdilər ki, işin faktları araşdırıldıqdan sonra "Milli polisin intizam rejimi haqqında" 4/2010 saylı Qanunda, digər amillərlə yanaşı, şəxsin irqi və ya etnik mənşəyinə, doğulduğu yerə və ya yaşayış yerinə və yaxud hər hansı şəxsi və ya sosial vəziyyətinə görə ayrı-seçkiliyə məruz qalması intizam pozuntusu kimi müəyyən edib. Belə ki, dövlət təhlükəsizlik qüvvələrinin və orqanlarının fəaliyyətindən, ayrı-seçkilik halları da daxil olmaqla, Daxili İşlər Nazirliyinin Kadrlar və Təhlükəsizlik Xidmətləri Müfəttişliyinə şikayətlər verilə bilər.

---

[7] Məsələn, "şəxsin iddia olunan irqinə, dərisinin rənginə, ailə mənşəyinə, milli və ya etnik mənşəyinə, milliyyətinə, cinsinə, cinsi oriyentasiyasına, vətəndaşlıq vəziyyətinə, doğumuna, yaşına, əmlakına, dini və ya fəlsəfi əqidəsinə, məhkumluğuna, hazırkı və ya gələcək sağlamlıq durumuna, əlilliyinə, dilinə, siyasi əqidəsinə, fiziki və ya genetik xüsusiyyətinə və ya sosial mənşəyinə görə şəxsə qarşı nifrət, həqarət və ya düşmənçilik".

[8] Xüsusilə Brugge, Brüssel, Dinan, Luven, Malin və Tonqresin islah məhkəmələrinin, habelə ağır cinayətlər üzrə Eno və Anver məhkəmələrinin və Brüssel Apellyasiya Məhkəməsinin qərarlarına.

Müfəttişlik tərəfindən araşdırıldıqdan sonra bu şikayətlər ya intizam, ya da məhkəmə icraatına göndərilir. Bundan başqa, 2019-cu ilin may ayında Dövlət təhlükəsizliyi katibi tərəfindən vətəndaşların şikayətlərinin verilməsi proseduru üzrə qabaqcıl təcrübələrə dair təlimat dərc edilmiş, orada ayrı-seçkiliklə bağlı hüquqpozmalar da əhatə edilmişdir. Paralel olaraq, Baş prokurorluğun 7/2019 saylı sirkulyarında Cinayət Məcəlləsinin 510-cu maddəsində nəzərdə tutulmuş nifrət cinayətlərinin təfsirinə dair rəhbər prinsiplər yer alır və vurğulanır ki, zorakılıq insidentlərini araşdırarkən milli hakimiyyət orqanları insidentlərdə irqçilik motivlərinin və etnik nifrət və ya qərəzliliyin olub-olmadığını müəyyən etmək üçün bütün ağlabatan addımları atmaqdan ibarət əlavə öhdəlik daşıyırlar.

Bundan əlavə, Baş prokurorluğun nəzdində nifrət cinayətləri üzrə xüsusi şöbə yaradılmış, ona milli səviyyədə və konkret sahələrdə nifrət cinayətlərinin müəyyən edilməsi, nifrət insidentlərinin və cinayətlərinin baş verməsi ilə bağlı statistik məlumatların təhlili, habelə ən çox risk altında olan qrupların və ya kollektivlərin müəyyən edilməsi həvalə olunmuşdur.

Ərizəçiyə gəldikdə, ərizəçinin şikayətləri üzrə araşdırma proseduruna (*Diligencias previas*) 2007-ci ilin martında Palma-de-Malyorka əyalət məhkəməsinin qərarı ilə xitam verilmişdir. Kiçik hüquqpozmalar üzrə icraat (*Juicio de faltas*) nəticəsində 6 aprel 2009-cu il tarixli hökmlə təqsirləndirilən polis əməkdaşlarına bəraət verilmişdir. Məsuliyyətə cəlb etmə müddətinin keçməsi araşdırmaların yenidən başladılmasına mane olmuşdur.

## 1.4. Fərdlərin və ya qrupların iştirakı ilə miqrantlara qarşı nifrət cinayətlərinə qarşı mübarizə

**YUN / Sakir (48475/09)**

***24/03/2016 tarixli qərar, q.m.: 24/06/2016***

**Yekun qətnamə: CM/ResDH(2022)108**

İş miqrant ərizəçinin bir qrup silahlı şəxs tərəfindən hücuma məruz qalması və xəsarətlər alması ilə bağlı araşdırmanın səmərəsizliyinə aiddir. Məhkəmə konkret olaraq müəyyən etdi ki, əcnəbilərə qarşı ekstremist qruplar tərəfindən həyata keçirilən və təkrarlanan hücumlara baxmayaraq, hakimiyyət orqanları Afinada irqi zorakılığın hökm sürdüyü ümumi vəziyyəti nəzərə almayıblar.

İşin faktları baş verdikdən sonra oxşar pozuntuların təkrarlanmasının qarşısını almaq üçün 4356/2015 saylı Qanunla Cinayət Məcəlləsinin 81A maddəsində nəzərdə tutulmuş nifrət cinayəti anlayışına dəyişiklik edilərək, hüquqpozanın qurbana qarşı onun irqinə, dərisinin rənginə, dininə və sairəyə görə nifrət hissi keçirməsini nəzərdə tutan ilkin şərt aradan qaldırılıb. Qurbanın irqi, dərisinin rəngi, dini, ailə mənşəyi, milli və ya etnik mənşəyi, cinsi oriyentasiyası, cinsi və ya əlilliyi kimi xüsusiyyətlərə görə hüquqpozan tərəfindən hədəf kimi seçilməsi indi cinayəti nifrət motivli əməl kimi xarakterizə etmək üçün kifayətdir. Bundan başqa, 2018-ci ilin dekabr ayında Kassasiya Məhkəməsinin prokuroru bütün prokurorlara müraciət edərək, onlara Konvensiya və Yunanıstan Konstitusiyasından irəli gələn öhdəliklərini xatırladıb və irqçi motivli zorakılıq aktları ilə üzləşdikdə lazımi sərtlik nümayiş etdirməyə çağırıb. Sirkulyar həmçinin polis orqanlarında yayılıb.

Üstəlik, Afina və Saloniki polis idarələrində irqçilik cinayətlərini araşdırmaq üçün irqi zorakılıqla mübarizə üzrə iki ixtisaslaşdırılmış şöbə yaradılmışdır. Ümumilikdə 68 bölmə (o cümlədən Afinada beş və regional səviyyədə 63) eyni məsələyə cavabdehdir. Yunanıstanda 24 məhkəmədə irqi zorakılıqlar üzrə xüsusi prokurorlar təyin edilib. Bundan əlavə, hakimiyyət orqanları bir sıra hallarda Avropa Şurasının təcrübəsinə istinad edərək, prokurorlar, hakimlər və polislər üçün insan hüquqlarının müdafiəsi və nifrət hüquqpozmaları/cinayətləri ilə bağlı qanunvericiliyin icrası üzrə davamlı təlimlər keçirmişlər. Həmçinin İrqçilik və Dözümsüzlüyə Qarşı Milli Şura ilk belə plan olan "2020-2023-cü illər üçün irqçiliyə və dözümsüzlüyə qarşı Milli Fəaliyyət Planı"nda Yunanıstanın irqçiliyə və dözümsüzlüyə qarşı sıfır dözümlülük siyasəti həyata keçirmək əzmini vurğulamışdır.

Ərizəçiyə gəlincə, Məhkəmənin qərarına cavab olaraq, 2016-cı ilin noyabrında Afina Birinci İnstansiya Məhkəməsinin prokuroru ərizəçiyə qarşı hücumla bağlı yeni ibtidai araşdırma aparılmasına dair göstəriş verdi. Lakin ərizəçini qeydiyyatda olduğu ünvanda tapmaq mümkün olmadığından iş bağlandı. İbtidai araşdırma çərçivəsində sonrakı addımlar barədə məlumat üçün 2019-cu ildə Nazirlər Komitəsinin verdiyi sorğuya cavab olaraq, ibtidai araşdırma bərpa edildi, lakin digər sübutların müəyyən edilməsi üçün göstərilən əlavə səylər uğursuz olaraq qaldı. 2020-ci ilin oktyabrında ittiham tərəfi hücumu adam öldürmə cəhdi kimi, yəni məsuliyyətə cəlb etmə müddəti keçməmiş cinayət kimi tövsif edə bilmək üçün yenidən ərizəçini axtarmağa cəhd etdi. Lakin polis onun yerini müəyyən edə bilmədi və iş bağlandı, amma yeni dəlillər ortaya çıxarsa, iş yenidən bərpa oluna bilər.

## 2. LGBTİ qrupuna mənsub şəxslərə münasibətdə nifrət cinayətlərinə və nifrət nitqinə qarşı mübarizə

***LİT / Beizaras və Levickas (41288/15)***

***14/01/2020 tarixli qərar, q.m.: 14/05/2020***

**İcra vəziyyəti: gözləmədə**

***Fəaliyyət planı/hesabatı: DH-DD(2021)852***

Bu iş əsas etibarilə hakimiyyət orqanlarının ərizəçilərə qarşı ayrı-seçkilik edərək, internetdə həddindən artıq homofobiya xarakterli nitq ilə, o cümlədən ərizəçiləri hədəfə alan açıq zorakılıq çağırışları ilə bağlı araşdırmaya başlamaqdan imtina etməsinə aiddir.

Məhkəmənin qərarına cavab olaraq, prokurorlar və polis əməkdaşları üçün nifrət cinayətlərilə və nifrət nitqi ilə bağlı ibtidai araşdırmaların aparılması üzrə yeni "Metodiki tövsiyələr" 2020-ci ilin mart ayında Baş prokuror tərəfindən təsdiq edilmiş və rayon prokurorluqlarının və polis orqanlarının rəhbərlərinə çatdırılaraq geniş şəkildə yayılmışdır. Həmçinin imkan daxilində nifrət cinayətlərilə bağlı şikayətlərin araşdırılması ilə ixtisaslaşmış prokurorlar məşğul olurlar. Bundan əlavə, Məhkəmənin qərarına istinad edərək, regional prokurorlar əməldə cinayət tərkibi elementləri kimi və ya ağırlaşdırıcı hal kimi qərəzli motivlərin (cinsi oriyentasiya da daxil olmaqla) mövcudluğunu müəyyən etmək üçün iddia edilən nifrət cinayətlərilə və nifrət nitqi ilə bağlı ibtidai araşdırma aparmaqdan imtina etdikləri əvvəlki (2016-cı ildən bəri qəbul edilmiş) qərarlarına yenidən baxırlar. Bundan başqa, 2017-2021-ci illər ərzində Baş prokurorluğun, Hökumətin Nümayəndəsinin və Bərabər İmkanlar üzrə Ombudsmanının iştirakı ilə hüquq-mühafizə orqanları üçün bir sıra məqsədyönlü təlimlər təşkil edilmiş və 2021-ci ilin dekabrında nifrət nitqi ilə bağlı Milli İnsan Hüquqları Forumu keçirilmişdir. 2021-ci ilin aprel ayından Litva Polis İdarəsinin virtual patrul bölməsi sosial şəbəkələrə nəzarət edir və kibeməkanda profilaktik fəaliyyət həyata keçirir, xüsusən də iddia olunan nifrət nitqi, ayrı-seçkilik və nifrət motivli zorakılığa təhrikçilik halları barədə məlumat toplayır və bu məlumatlar araşdırmalar üçün müvafiq polis bölməsinə ötürülür. Baş prokurorluq da nifrət cinayətlərinin və nifrət nitqinin elektron qeydiyyatının aparılmasını və məlumatların toplanmasını nəzərdə tutur. Paralel olaraq, Məhkəmənin nifrət cinayətlərinə dair presedent hüququna geniş şəkildə istinad etməklə, cinsi oriyentasiya ilə bağlı ayrı-seçkiliyin ciddiliyini vurğulayan yerli məhkəmələrin (o cümlədən rayon məhkəmələrinin və Konstitusiya Məhkəməsinin) presedent hüququndan nümunələr təqdim edilmişdir; bu nümunələr son illərdə internetdə ayrı-seçkilik və homofobiya xarakterli nifrət şərhlərinə görə cəzasızlığın aradan qaldırılmasında müsbət tendensiya olduğunu göstərir.

Ərizəçilərə gəldikdə, hakimiyyət orqanlarının ibtidai araşdırmaya başlamaqdan imtina etmək barədə ilkin qərarı ləğv edildi və 2020-ci ilin iyul ayında 29 şəxsin yazdığı 31 şərhlə bağlı hər hansı milli, irqi, etnik, dini və ya digər qrupa mənsub insanlara qarşı təhrikçilik ittihamı ilə ibtidai araşdırma (Cinayət Məcəlləsinin 170-ci maddəsinin 2-ci bəndi) başlandı. 2021-ci ilin dekabr ayına olan məlumata görə, yeddi iş üzrə cinayət işinə xitam verilib, 22 iş üzrə ittihamların araşdırılması isə

davam edir. Beş halda xaricdə yaşayan şübhəlilərin dindirilməsindən ötrü xarici dövlət orqanlarına hüquqi yardım üçün sorğu göndərilib. Sözügedən faktların baş verməsindən uzun müddət keçdiyinə görə on üç nəfərin şəxsiyyətini hələlik müəyyən etmək mümkün olmayıb. Lakin onların şəxsiyyəti müəyyən olunarsa, həmin tarixə qədər barələrində cinayət təqibi aparılmadığı təqdirdə, onlara qarşı araşdırmalar başlana bilər.

---

**RUM / M.C. və A.C. (12060/12)**

*12/04/2016 tarixli qərar, q.m.: 12/07/2016*

**İcra vəziyyəti: gözləmədə**

*Fəaliyyət planları/hesabatları: DH-DD(2018)808, DH-DD(2017)101*

Bu iş bir qrup şəxs tərəfindən homofobiya motivi ilə ərizəçilərə qarşı həyata keçirilən şifahi və fiziki hücumla bağlı hakimiyyət orqanlarının səmərəli araşdırma aparmamasına aiddir.

İşin faktları müəyyən edildikdən sonra cinayətin kökündə duran ayrı-seçkilik, o cümlədən cinsi oriyentasiya motivi 2006-cı ildə Cinayət Məcəlləsində qanunla müəyyən edilmiş ağırlaşdırıcı hal kimi götürülərək, hakimiyyət orqanlarının üzərinə konkret işdə bu motivin təsirini səlahiyyətlərinə uyğun olaraq araşdırmaq vəzifəsi qoyuldu. Nifrət nitqinə gəlincə, 2006-cı il tarixli CM-də müəyyən kateqoriyaya aid şəxslərə qarşı nifrətə çağırış və ya ayrı-seçkilik əməlləri də cəzalandırılır. Bundan əlavə, 2022-ci il qanunvericilik dəyişikliklərindən sonra zorakılığa çağırış da cinayət hesab olunur və nifrət nitqi qanunla qorunan kateqoriyaya aid şəxsə qarşı yönəldikdə, nifrətə, ayrı-seçkiliyə və zorakılığa təhrikçilik də indi cinayət sayılır.

Bundan başqa, 2021-ci ildə Rumıniya Baş Polis Müfəttişliyinin (IGPR) Cinayət axtarışı idarəsinin tərkibində nifrət cinayətlərini araşdırmaq üçün ixtisaslaşdırılmış bölmə yaradılmalı idi. Həmçinin 2020-ci ilin oktyabrında qəbul edilən, nifrət cinayətlərinin aşkarlanması və araşdırılması üçün tövsiyələr və praktiki təlimatlar təqdim edən nifrət cinayətlərinin araşdırılması üzrə yeni metodologiya prokurorlara ilkin və qurumdaxili təlimlər keçirilməsi üçün prokurorluq orqanlarında və Milli Məhkəmə İnstitutunda geniş şəkildə paylanıb. Ədalət mühakiməsi sistemində vəzifəli şəxslərin nifrət cinayətləri və ümumilikdə nifrət nitqi ilə bağlı məlumatlılığını artırmaq və homofob hərəkətləri aşkar etmək və onlara adekvat reaksiya vermək imkanlarının artırılması üçün səylər göstərilib, buraya Avropa Şurasının müvafiq qurumları ilə əməkdaşlıq da daxildir. Bundan əlavə, müvafiq qanunvericiliyin gücləndirilməsi və yerli hakimiyyət orqanlarının belə hallarla mübarizə potensialının artırılması zərurətini qiymətləndirmək və tolerantlığı, vətəndaşların maarifləndirilməsini və cəmiyyətin belə hallara qarşı müqavimətini təşviq etmək və məlumatların toplanmasını təkmilləşdirmək üçün "Antisemitizm, ksenofobiya, radikallaşma və nifrət nitqinin qarşısının alınması və onlarla mübarizə üçün 2021-2023-cü illər üzrə Milli Strategiya"nın icrasına başlanılıb.

Nazirlər Komitəsinin 2021-ci ilin dekabrında keçirilmiş insan hüquqları üzrə iclasında hakimiyyət orqanlarına təklif edilmişdir ki, nifrət cinayətləri barədə məlumat verilməsinin və onların qeydiyyatının təkmilləşdirilməsi üçün nəzərdə tutulmuş konkret tədbirlər də daxil olmaqla, nifrət cinayətlərinin yayılmasının və cinayət ədliyyəsi sisteminin buna reaksiyasının kompleks və ardıcıl şəkildə nəzərdən keçirilməsinə imkan yaratmaq üçün nifrət cinayətləri barədə məlumatların toplanmasının təkmilləşdirilməsindən ötrü tələb olunan tədbirlər barədə əlavə məlumat təqdim etsinlər.

Ərizəçilərə gəldikdə, cinayətə görə məsuliyyətə cəlb etmə müddətinin keçməsi ölkədaxili cinayət araşdırmasına yenidən başlanmasını istisna etdiyi üçün əlavə fərdi tədbirlər görülməsi mümkün olmayıb.

---

## 3. Dini motivli nifrət cinayətlərinə və nifrət nitqinə qarşı mübarizə

**SER / Milanović (44614/07)**

*14/12/2010 tarixli qərar, q.m.: 20/06/2011*

İş hakimiyyət orqanlarının "Hare Krişna" dini icmasının aparıcı üzvü olan ərizəçini, çox güman ki, dini nifrətdən qaynaqlanan təhdid və hücumlardan, o cümlədən xəsarətlər almaqdan

**Yekun qətnamə: CM/ResDH(2019)365**

qorumaması, səmərəli araşdırma aparmaması və ərizəçinin təkrarən pis rəftara məruz qalmasının qarşısını almaması ilə bağlıdır.

Məhkəmənin qərarına cavab olaraq, 2012-ci ildə Cinayət Məcəlləsinə dəyişiklik edilib və "nifrət cinayəti" əməli Məcəlləyə daxil edilib və "nifrət motivi" ağırlaşdırıcı amil kimi nəzərdə tutulub. Yeni Cinayət Prosessual Məcəlləsi (CPM-2013) polis və prokurorluq orqanları arasında əməkdaşlığı genişləndirməklə yanaşı, istintaqın aparılması səlahiyyətlərini prokurorluq orqanlarına vermişdir. 2015-ci ilin dekabrında Baş prokuror nifrət cinayətlərinin, o cümlədən dini nifrətdən qaynaqlanan cinayətlərin xüsusi qeydiyyatının aparılması üçün məcburi qüvvəyə malik təlimat verib. 2017-ci ildə Baş prokuror Konvensiyanın tələblərinə uyğun olaraq nifrət cinayətlərinə, xüsusən də dini nifrət zəminində törədilmiş cinayətlərə münasibətdə cinayət təqibinin vacibliyi barədə prokurorlar arasında məlumatlılığı artırmaq üçün "Nifrət cinayətlərinin təqibinə dair rəhbər prinsiplər"i dərc etmişdir. 2018-ci ildə dövlət ittihamçısı tərəfindən nifrət cinayətlərilə bağlı prokurorlarının yanaşmalarının effektivliyini və vahidliyini artırmaq məqsədi ilə apellyasiya, yuxarı və əsas instansiya prokurorluqları üçün "nifrət cinayətlərinin təqibi üzrə əlaqələndirici şəxslər" funksiyasını müəyyən edən, icrası məcburi olan yeni təlimat qəbul edilib. "Nifrət cinayətlərinin təqibi üzrə əlaqələndirici şəxslər", digər məsələlərlə yanaşı, nifrət cinayətlərinin monitorinqini aparmaq və onlara dair qeydləri izləmək və saxlamaq, prokurorluq orqanları ilə məsləhətləşmələr aparmaq, nifrət cinayətlərinin qurbanları ilə, həmçinin polislə və qurbanlara dəstək göstərən QHT-lərlə əlaqə saxlamaq öhdəliyini daşıyırlar. Qurbanlara daha yaxşı yardım göstərmək üçün Belqrad, Novi Sad, Niş və Kraquyevatsdakı yuxarı instansiya prokurorluqlar nəzdində qurbanlar və şahidlər üçün məlumat büroları yaradılmışdır.

Ümumiyyətlə ayrı-seçkiliyə gəldikdə, 2009-cu ildə qəbul edilmiş "Ayrı-seçkiliyin qadağan edilməsi haqqında" Qanun dini mənsubiyyətə görə ayrı-seçkilik də daxil olmaqla ayrı-seçkiliyə qarşı səmərəli müdafiənin təmin edilməsində effektiv alətə çevrilmiş, orada qurbanın ayrı-seçkilikdən müdafiə üçün mülki məhkəmələrə müraciət etmək hüququ nəzərdə tutulmuşdur. Bərabərlik üzrə komissar ayrı-seçkilik hallarını araşdırmaq və həll yolları təklif etmək səlahiyyətinə malik müstəqil təsisat kimi yaradılmışdır. "Ayrı-seçkiliyə qarşı strategiya" (2013-2018); "Serbiya Respublikasında qaraçıların sosial inteqrasiyası üzrə strategiya" (2016-2020); və "Milli məhkəmə islahatı strategiyası" (2013-2018) kontekstində müvafiq siyasət və inzibati tədbirlər həyata keçirilib. 2015-2018-ci illər arasında dini və siyasi əqidəsinə görə şəxslərin ayrı-seçkiliyə məruz qaldığını əks etdirən şikayətlər xeyli azalıb. Bundan başqa, Konstitusiya Məhkəməsi bəzi ekstremist ifrat sağçı təşkilatların fəaliyyətini qadağan edib.

Ərizəçiyə gəlincə, Məhkəmənin qərarından sonra polis onun evini və ətraf ərazini yoxlayaraq onu növbəti hücumlardan qorumaq üçün səy göstərmişdir. Hücum edənlərin və dini ədavəti qızışdıran şəxslərin müəyyən edilməsi məqsədilə araşdırmalar aparılmış, lakin heç bir nəticəyə gəlinməmişdir. 2013-cü ildə cinayət təqibi üçün müəyyən edilmiş müddət keçdiyinə görə araşdırmalara xitam verilmişdir.

## 4. İşlərin siyahısı

BEL / Turan Cakir (44256/06) ........................................10
BOL / Abdu (26827/08) ....................................................7
BOL / Angelova və Iliev işlər qrupu (55523/00)................7
BOL / Nachova və başqaları (43577/98 və 42579/98) .......3
BOL / Yotova (43606/04) ................................................7
XOR / Šečić işlər qrupu (40116/02) .................................8
XOR / Škorjanec (25536/14)............................................8
İSP / B.S. (47159/08) .....................................................11
YUN / Bekos və Koutropoulos (15250/02) ........................3
YUN / Sakir (48475/09) ...............................................12
MAC / Balázs işlər qrupu *(*15529/12*)* ...............................4
MAC / Balogh (47940/99) ...............................................4
ISO / İşin adı (1234/5667) ...............................................3
LİT / Beizaras və Levickas (41288/15) ............................13
MON / Alković (66895/10)................................................ 8
RUM / Boacă və başqaları (40355/11).............................. 6
RUM / Cobzaru (48254/99) ............................................ 6
RUM / Gergely (57885/00)............................................. 9
RUM / Kalanyos və başqaları (57884/00) ........................ 9
RUM / M.C. və A.C. (12060/12) .....................................13
RUM / Tănase və başqaları (62954/00)...........................10
RUM/ Stoica (42722/02) ................................................ 6
RUM/Moldovan və başqaları (№ 2) işlər qrupu (41138/98 və 64320/01) ........................................................... 9
SER / Milanović (44614/07)...........................................14
SVK / Koky və başqaları (13624/03)................................ 9
SVK / Lakatošová və Lakatoš (655/16) ............................. 5
SVK / Mizigarova (74832/01) ......................................... 6